# Həftəlik
# *Bülleten*



**111**
**3 Oktyabr 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

**ATMİA**

info@atmia.az    www.atmia.az

**İlham Əliyev və Mehriban Əliyeva Bakıda yeni parkın açılışında iştirak ediblər.**

Oktyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Nərimanov rayonunda salınan yeni parkın açılışında iştirak ediblər. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma park barədə məlumat verdi. Bildirildi ki, yeni istirahət məkanı Əhməd bəy Ağaoğlu, Təbriz və Tələt Şıxəliyev küçələrinin kəsişməsində, İtaliya-Azərbaycan Universitetinin yaxınlığında yerləşir. Ərazisi 3,5 hektar olan parkda sakinlərin istirahəti üçün söhbətgahlar, amfiteatr, tennis meydançası, uşaqlar üçün əyləncə zonaları salınıb, müasir işıqlandırma sistemi qurulub. Burada həm sakit istirahət, həm də idmanla məşğul olmaq üçün bütün imkanlar yaradılıb. Qeyd edək ki, son illərdə Bakının siması sürətlə dəyişir. Yeni park və xiyabanların salınması, mövcud yaşıllıq və istirahət zonalarının müasir tələblərə uyğun yenilənməsi paytaxtı daha da inkişaf etdirir, onu dünyanın ən gözəl şəhərlərindən birinə çevirir. Bakının müxtəlif yerlərində açılan yeni istirahət guşələri sakinlərin asudə vaxtlarını səmərəli keçirmələrinə şərait yaratmaqla yanaşı, ekoloji mühitin yaxşılaşmasına da xidmət edir. Yeni park isə paytaxtın "yaşıl xəritəsi”nə əlavə olunmuş daha bir məkan kimi şəhər sakinlərinin və qonaqların ixtiyarına verildi.



**Azərbaycanda yeni tikilən çoxmərtəbəli binaların istismar müddəti azı 100 il olacaq.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyası "Yüksək binalar və komplekslər. Layihələndirmə normaları"nı təsdiqləyib. Bununla bağlı Kollegiyanın sədri Anar Quliyev yeni qərar imzalayıb. Qərara əsasən, binaların layihələndirilməsi layihə tapşırığı üzrə yerinə yetirilməlidir. Belə ki, layihələndirilən yüksək binalar yüksək məsuliyyət səviyyəsinə aiddir və konstruksiyalarının hesablama istismar müddəti 100 ildən az olmayaraq qəbul edilməlidir. Bundan başqa, tikinti layihəsinin tərkibinə binanın və mühəndis sistemlərinin əsas xüsusiyyətlərini özündə əks etdirən binanın texniki pasportu daxil edilməlidir. Layihə sənədlərində bina konstruksiyalarının inşası və mühəndis sisteminin quraşdırılması işlərində həddi sapmalar qeyd edilməlidir. Həmçinin yüksək binaların və komplekslərin yanğından mühafizə layihələrində avtomatlaşdırılmış yanğınsöndürmə və yanğın xəbərdaredici sistemləri (siqnalizasiyası) nəzərdə tutulmalıdır. Bitişik ərazilərdə binaların sayından, təyinatından və həcmi-planlaşdırma həllərindən asılı olmayaraq aşağıdakı abadlıq elementləri nəzərdə tutulmalıdır: - baş yollara giriş və çıxışlar; - avtomobil duracaqları; - istirahət zonaları; - yaşıllıq zonaları; - xüsusi avtomobil nəqliyyatı ilə tullantıların yığılması üçün tutumların yerləşdirilməsi. Tikinti ərazisi 9 ha-dan çox olan bina kompleksinin ətrafı boyu dairəvi yol layihələndirilməlidir. Binalarla yol arasında məsafə 25 m-dən çox olmamalıdır.



**Azərbaycanda tikintiyə və istismara icazə üzrə əsas prioritetlər açıqlanıb.**

Azərbaycanda tikintiyə və istismara icazə mexanizmlərinin optimallaşdırılması əsas prioritetlərdəndir. Bunu Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şixəliyev İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə "Tikintiyə və istismara icazələrin alınması üçün tələb olunan vaxt və xərclərlə bağlı mövcud vəziyyət və onların optimallaşdırılması ilə bağlı imkanlar" adlı tədbirdə bildirib. Onun sözlərinə görə, bu sahədə həm qanunvericiliyin təkmilləşdirilməsi, həm də elektron sistemlərin yaradılması istiqamətində mühüm işlər görülüb: "Dövlət-biznes dialoqu formatında özəl sektorun fəal iştirakı ilə keçirilən ictimai dinləmələr mövcud imkanların tətbiqi, qanunvericiliyin icrası və inzibati tənzimləmə prosesində ortaya çıxan məsələlərin həlli baxımından mühüm əhəmiyyət kəsb edir". V. Şixəliyev əlavə edib ki, tikintiyə və istismara icazə proseslərində mərhələlərin sayı, onların icra müddətləri və xərclərin şəffaflaşdırılması əsas prioritetlərdəndir: "Biznes nümayəndələrinin təqdim etdiyi arayış və təhlillər əsasında müvafiq arqumentlər hazırlana bilər. Xərclərin şəffaflığı, əlçatanlığın artırılması və optimallaşdırılması isə qarşıda duran əsas çağırışlardandır".



**Anar Quliyev: "Artıq "yaşıl tikinti"dən danışmalıyıq".**

Baş plan təməl sənəddir, onun əsasında müvafiq məsələlər həllini tapır.

Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW2025) çərçivəsində jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, üç növ planlaşdırma sənədi (ümumi plan, baş plan və müfəssəl plan) mövcuddur: "Baş plan ortada duran sənəddir və əsasən yol xəritəsi rolunu oynayır. Yəni şəhəri, yaşayış məntəqəsini zonalaşdıraraq əsas istiqamətləri müəyyən edir. Baş plan əsasında müfəssəl planlar işlənilir. Komitə olaraq işimiz həm də tikinti sektorunu tənzimləyən normativ bazanı təkmilləşdirməkdir. Ona görə təkcə baş plan bütün problemlərimizi həll etmir. Amma baş plan təməl sənəddir ki, onun əsasında müvafiq məsələlər həllini tapır". Sədr qeyd edib ki, Azərbaycan həm tarixi, mədəni və memarlıq irsini qorumalı, həm də müasir iqtisadiyyat haqqında düşünməlidir: "Artıq neft sənayesi əsaslı iqtisadiyyatdan digər sahələr üzərində qurulan iqtisadiyyata keçməliyik. Biz həmçinin ətraf mühitimizi qorumalıyıq, Xəzər dənizini təmiz saxlamalıyıq. Tikinti də bu geniş proqramın içərisində çox vacib amildir. Biz "yaşıl tikinti"dən danışmalıyıq və artıq danışırıq. Bəzi beynəlxalq maliyyə təşkilatları ilə bu sahədə bir yol xəritəsi hazırlanıb".



**"Yuxarı Baş" qoruğunun ərazisində tikinti və yenidənqurma işləri aparılacaq.**

Dövlət Turizm Agentliyi Şəki şəhərində yerləşən "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində tikinti və yenidənqurma işləri aparmağa hazırlaşır.

Bu barədə agentliyə istinadən xəbər verilir.

Məlumata görə, qurum Qala divarları daxilində abadlıq işləri aparmaq üçün "İsmayıllı Tikinti-27" ASC ilə müqavilə bağlayıb. Şirkət gördüyü işlərə görə 206 min manata yaxın haqq alacaq.



**“Bakı Engineering Supplies Ltd” şirkətinin rəhbərinə ATMİA-nın tam hüquqlu üzvlük sertifikatı təqdim edilmişdir.**

“Bakı Engineering Supplies Ltd” şirkətinin rəhbəri Kamran Mehdi-zadəyə növbəti 2025-2026 dövr üçün ATMİA-nın tam hüquqlu üzv adını təsdiq edən sertifikat təqdim edilmişdir. ATMİA-da baş tutan görüş zamanı planlaşdırılan layihələr çərçivəsində qarşılıqlı səmərəli fəaliyyət imkanları müzakirə edilib.

2009-cu ildən bu günə kimi “Bakı Engineering Supplies Ltd” MMC neft və qaz, yanacaq-energetika sənayesi, inşaat sektoru və sənayenin ümumi sahələri üzrə fəaliyyət göstərən müəssisə və qurumlara müasir tələblərə cavab verən məhsulların təchizatı üçün xidmətlər təklif edir.Təchiz edilən məhsullar: sənaye klapanı, boru avadanlığı, stellaj avadanlığı, torpaqlama məhsulları, borular, kimyəvi alətlər, qaldırıcı, qısqaclar, təhlükəsizlik məhsulları, yağlama avadanlığı, qaz sistemləri, neft avadanlıqları və tikintiyə aid sair məhsullardan ibarətdir.

Üzvümüz barədə daha ətraflı: https://bakuengineering.com/



**Hörmətli sahibkarlar!**

Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi məqsədilə cari ilin 23 oktyabr tarixində Varşava şəhərində Polşa–Azərbaycan biznes forumu keçiriləcək. Forumda rəsmi şəxslərin, müxtəlif sahələrdə fəaliyyət göstərən sahibkarların iştirakı, həmçinin ikitərəfli görüşlərin təşkili nəzərdə tutulur. Tədbir çərçivəsində B2G və B2B formatlarında görüşlər təşkil ediləcək. Polşa ilə əməkdaşlıqda maraqlı olan üzvlər sözügedən biznes forumda iştirak etməyə dəvət olunurlar.

Səfər üzvlərimizdən ibarət qrup şəklində təşkil olunacaq.

Əlaqə nömrəsi: 050 250 95 17

ATMİA

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: THE BIG 5 CONSTRUCT QATAR 2025**

**Tarixlər: 12-14 oktyabr 2025-ci il,**

**Məkan: Doha Sərgi və Konqres Mərkəzi, Doha (Qətər)**

Big 5 Construct Qatar tikinti sənayesinin bütün mühüm sektorlarını əhatə edir və tikinti alış dövründə hər şeyi - başlanğıcdan tamamlanana qədər nümayiş etdirmək üçün mükəmməl platforma təklif edir.

**Sərginin adı: BAKU BUILD 2025**

**Tarixlər: 14-16 oktyabr 2025-ci il,**

**Məkan: Bakı Ekspo Mərkəzi, Bakı (Azərbaycan)**

“BakuBuild” Azərbaycanda və Qafqaz regionunda tikinti sektorunda ən böyük sərgidir. Sərgi tikinti sənayesində innovativ məhsul və xidmətlərin yerli bazara çıxış qapısı rolunu oynayır.

**Sərginin adı: EUROBUILDEXPO 2025**

**Tarixlər: 14-16 oktyabr 2025-ci il,**

**Məkan: Kiyev Beynəlxalq Sərgi Mərkəzi, Kiyev (Ukrayna)**

Sənaye və mənzil tikintisi üzrə Beynəlxalq Ticarət Sərgisi. Memarlıq və təmir işləri, tikinti texnologiyaları, materiallar və konstruksiyalar, maşınlar, avadanlıqlar, tikinti və təmir işləri üçün alətlər, iqlim avadanlığı...

**Sərginin adı: SAUDI GREEN BUILDING FORUM 2025**

**Tarixlər: 14-15 oktyabr 2025-ci il,**

**Məkan: Ər-Riyad (Səudiyyə Ərəbistanı)**

Səudiyyə Yaşıl Tikinti Forumu  Səudiyyə Ərəbistanında davamlılıq və yaşıl təşəbbüslərin inkişaf ıüçün mühüm platformadır.

**Hadrut qəsəbəsində 4,5 milyon manata bina inşa ediləcək.**

Ağdam, Füzuli və Xocavənd Rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti (VÖEN: 3201635961) açıq tender elan edib. Müsabiqə "Xocavənd rayonunun Hadrut qəsəbəsində infrastruktur binasının tikintisi və çoxmənzilli yaşayış binalarının təmiri işləri"nin satın alınmasına aiddir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zabil Vəliyev – Baş məsləhətçi
Email: z.valiyev@afxbti.gov.az
Əlaqə telefonu: +994 50 466 12 66



**Ağdamda 29,3 milyon manata bina tikintisi və abadlaşdırma işlərini həyata keçirəcək - ŞİRKƏTLƏR SEÇİLİR**

“Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxsi (VÖEN: 3201635961) açıq tenderlər elan edib. Elan olunan tenderlər aşağıdakılardır:

1. Ağdam rayonu, Ağdam şəhəri F-2 yaşayış məhəlləsi üzrə enerji təsərrüfatı obyektləri, sahədaxili mühəndis-kommunikasiya sistemləri və yaşıllıq, abadlıq işləri.
2. Ağdam şəhəri 5-ci yaşayış massivi, məhəllə O-137 üzrə binaların tikintisi işləri.
3. Ağdam şəhəri 5-ci yaşayış massivi, məhəllə O-122 üzrə binaların tikintisi işləri.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –
Fərid Əzizov – Satınalma şöbəsinin baş məsləhətçisi
Email: f.azizov@afxbti.gov.az
Əlaqə telefonu: +994 70 310 36 99



**Saray qəsəbəsində sosial evlər tikiləcək - 106 MİLYON MANATLIQ TENDERLƏR.**

“MİDA” MMC Abşeron rayonu, Saray qəsəbəsində yerləşən 4,5 hektar torpaq sahəsində çoxmənzilli yaşayış və qeyri-yaşayış binalarının tikintisi ilə bağlı 3 tender elan edib. Birinci tender çərçivəsində 8 və 9 nömrəli 16 mərtəbəli, 10, 11 və 12 nömrəli 12 mərtəbəli çoxmənzilli yaşayış binalarının, həmçinin 13 nömrəli 1 mərtəbəli qeyri-yaşayış binasının tikintisi nəzərdə tutulur. İkinci tender 5 nömrəli 12 mərtəbəli, həmçinin 6 və 7 nömrəli 16 mərtəbəli çoxmənzilli yaşayış binalarının tikintisini əhatə edir.  Üçüncü tender isə 1 və 4 nömrəli 12 mərtəbəli, 2 və 3 nömrəli 16 mərtəbəli çoxmənzilli yaşayış binalarının, həmçinin 14 və 15 nömrəli 1 mərtəbəli qeyri-yaşayış binalarının tikintisini nəzərdə tutur.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Vüqar Təyyar oğlu Əliyev, “MİDA” MMC-nin sektor müdiri
Email: vugar.aliyev@mida.gov.az
Əlaqə telefonu: +994 12 594 54 01 (daxili 239)



**Qaradağın yolları təmir olunacaq - TENDER KEÇİRİLİR.**

Qaradağ RİHB Aparatının Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi açıq tender elan edib.
Müsabiqə Qaradağ rayonunda yolların əsaslı təmiri və abadlıq işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Heydərov Məqsud, şöbə müdiri
Email: qaradag-mktb@mail.ru
Əlaqə telefonu: +994 12 445 28 89



**Nazirlik binalarında təmir işləri gördürəcək - TENDER ELANI.**

Ədliyyə Nazirliyi açıq tender elan edib.
Müsabiqə inzibati binalarda cari təmir işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Anar Vəliyev, baş məsləhətçi
Email: anar.veliyev@justice.gov.az
Əlaqə telefonu: +994 12 492 62 35



**ƏRAZİ TİKİNTİ-PLANLAŞDIRMA MƏRKƏZİNİN TENDER ELANI.**

Ərazi Tikinti-Planlaşdırma Mərkəzi açıq tender elan edib.
Elanda Gəncə şəhəri, Atatürk pr-də inşa ediləcək çoxmənzilli yaşayış binaları üçün ərazinin şəhərsalma əsaslandırılması və inşa ediləcək yaşayış binalarının layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi –

Rüfət Qasımov, Mühəndis
Email: rufat.qasimov@arxkom.gov.az
Əlaqə telefonu: +994 12 492 31 89 (771)





**www.atmia.az**